# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 508

QƏRAR

Bakı şəhəri, 4 dekabr 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının 8.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 322 (Cild I); 2024, № 2, maddə 206) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 48-101-ci, 227-ci və 228-ci hissələr ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 229-288-ci hissələr əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 229. | Sərsəng su anbarı | Ağdərə rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 230. | Suqovuşan su anbarı | Ağdərə rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 231. | Mingəçevir su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Mingəçevir şəhəri | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 232. | Şəmkir su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Şəmkir rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 233. | Yenikənd su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Samux rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 234. | Varvara su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları | Yevlax rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 235. | Ceyranbatan su anbarı, onun mühafizə və sutənzimləyici hidrotexniki qurğuları, Ceyranbatan su təchizatı sisteminin su təchizat qəbulu qurğusu ilə birlikdə | Abşeron rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 236. | Qarabağ suvarma kanalının baş suqəbuledici qurğusu | Mingəçevir şəhəri | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 237. | Şirvan suvarma kanalının baş suqəbuledici qurğusu | Yevlax rayonu | Fövqəladə Hallar Nazirliyinin vəsaiti |
| 238. | Taxtakörpü su anbarı | Şabran rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 239. | Şəmkirçay su anbarı | Şəmkir rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 240. | Xanbulançay su anbarı | Lənkəran rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 241. | Viləşçay su anbarı | Masallı rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 242. | Ağstafaçay su anbarı | Qazax rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 243. | Coğazçay su anbarı | Qazax rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 244. | Axıncaçay su anbarı | Tovuz rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 245. | Nohurqışlaq su anbarı | Qəbələ rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 246. | Bəhrəmtəpə hidroqovşağı | İmişli rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 247. | Qax su istehsalat bazası | Qax rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 248. | Külüllü suqəbuledici qurğular kompleksi | Ağsu-İsmayıllı rayonları | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 249. | Ballıqaya suqəbuledici qurğusu | Goranboy rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("Regional Su Meliorasiya Xidməti" PHŞ) |
| 250. | Maştağa su anbarı və onun nasos stansiyası | Bakı şəhəri, Sabunçu rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 251. | +18 "Ramana" su anbarı | Bakı şəhəri, Sabunçu rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 252. | +42 "Dədə Qorqud" su anbarı | Bakı şəhəri, Suraxanı rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 253. | +69 "Qərb" su anbarı | Bakı şəhəri, Nəsimi rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 254. | +69 "Şərq" su anbarı | Bakı şəhəri, Xətai rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 255. | +82 "Masazır" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 256. | +82 "Balaxanı" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 257. | +87 "Saray" su anbarı və onun supaylayıcı kamerası | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 258. | +105 "Saray" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 259. | +110 "Qərb" su anbarı | Bakı şəhəri, Yasamal rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 260. | +110 "Şərq" su anbarı | Bakı şəhəri, Nizami rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 261. | +118 "Abşeron" su anbarı | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 262. | +119 "Sulutəpə" su anbarı | Bakı şəhəri, Binəqədi rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 263. | +126 "Qaraçuxur" su anbarı | Bakı şəhəri, Nizami rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 264. | +152 "Alatava" su anbarı | Bakı şəhəri, Yasamal rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 265. | +160 "Qərb" su anbarı | Bakı şəhəri, Yasamal rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 266. | +160 "Şimal" su anbarı | Bakı şəhəri, Binəqədi rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 267. | +180 "Badamdar" su anbarı | Bakı şəhəri, Səbail rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 268. | +220 "Badamdar" su anbarı | Bakı şəhəri, Səbail rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 269. | Babazanlı su anbarı | Salyan rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 270. | 6 saylı su anbarı və 2 saylı nasos stansiyası | Xankəndi şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 271. | 8 saylı su anbarı | Xankəndi şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 272. | Oğuz-Qəbələ-Bakı su kəməri, quyular sahəsi, təzyiqqırıcı kameralar | Oğuz-Qəbələ rayonları | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 273. | 1-ci və 2-ci Bakı su kəməri xətləri və mənbəyi | Xaçmaz rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 274. | Kür su kəmərləri, onların təmizləyici qurğuları və nasos stansiyaları kompleksi | Hacıqabul rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 275. | Ceyranbatan sutəmizləyici qurğuları və nasos stansiyaları kompleksi | Abşeron rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 276. | Quba sutəmizləyici qurğusu | Quba rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 277. | Şəmkir sutəmizləyici qurğusu | Şəmkir rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 278. | 1 saylı sutəmizləyici qurğular kompleksi | Xankəndi şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 279. | Şuşa sutəmizləyici qurğular kompleksi | Şuşa rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 280. | Müşfiqabad supaylayıcı kamerası | Bakı şəhəri, Qaradağ rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 281. | 1-ci və 2-ci Bakı su kəmərlərinin 1 və 2 saylı nasos stansiyaları | Sumqayıt şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 282. | Səngəçal su nasos stansiyası | Bakı şəhəri, Qaradağ rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 283. | Göygöl-Gəncə su mənbəyi (suqəbuledici qurğu) | Göygöl rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 284. | Qızılqaya-Gəncə su mənbəyi (suqəbuledici qurğu) | Göygöl rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 285. | Zarıslı su mənbəyi (suqəbuledici qurğu) | Şuşa rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 286. | Hövsan Aerasiya stansiyası | Bakı şəhəri, Suraxanı rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 287. | Zığ çirkab sutəmizləyici qurğuları və nasos stansiyası | Bakı şəhəri, Xətai rayonu | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |
| 288. | Sumqayıt çirkab sutəmizləyici qurğusu | Sumqayıt şəhəri | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin vəsaiti ("İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" PHŞ) |

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı"nın:

2.1. 229-288-ci hissələrində nəzərdə tutulmuş obyektlərin balanssaxlayıcısı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyidir;

2.2. 229-237-ci hissələrində nəzərdə tutulmuş obyektlərin mühafizəsi Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və 238-288-ci hissələrində nəzərdə tutulmuş obyektlərin mühafizəsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən təmin edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***